Əgər Siz qanınızı İİV-ə müayinə etdirmək istəyirsinizsə, aşağıdakı İİV-diaqnostika laboratoriyalarına müraciət edin:

| | |
|---|---|
| Respublika QİÇS-lə Mübarizə Mərkəzi | Bakı şəh., Mir-Qasımov küçəsi, 1/8 |
| Bakı İİV-diaqnostika laboratoriyası | Respublika Gigiyena və Epidemiologiya Mərkəzi; Bakı şəh., A.Manafov küçəsi, 22 |
| Naxçıvan MR QİÇS-lə Mübarizə və Profilaktika Mərkəzi | Naxçıvan MR, Naxçıvan şəh., Nizami küçəsi, 53 |
| Gəncə İİV-diaqnostika laboratoriyası | 3 nömrəli Şəhər Poliklinikası, Gəncə şəh., Gülüstan qəsəbəsi, 27 |
| Quba İİV-diaqnostika laboratoriyası | Quba Rayon Mərkəzi Xəstəxanası; Quba şəh., Fətəlixan küçəsi, 12 |
| Lənkəran İİV-diaqnostika laboratoriyası | Lənkəran Rayon Mərkəzi Xəstəxanası; Lənkəran şəh., Nizami küçəsi, 67 |
| Mingəçevir İİV-diaqnostika laboratoriyası | Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası; Mingəçevir şəh., 20 yanvar küçəsi, 12 |
| Salyan İİV-diaqnostika laboratoriyası | Salyan Rayon Mərkəzi Xəstəxanası; Salyan rayonu, Kürqaraqaşlı kəndi |
| Sumqayıt İİV-diaqnostika laboratoriyası | Sumqayıt şəhər Gigiyena və Epidemiologiya Mərkəzi; 26-cı məhəllə, Natavan küçəsi, 30 |
| Şamaxı İİV-diaqnostika laboratoriyası | Şamaxı Rayon Mərkəzi Xəstəxanası; Şamaxı şəh., Qədirli küçəsi, 61 |
| Şəki İİV-diaqnostika laboratoriyası | Şəki Rayon Mərkəzi Xəstəxanası, Şəki şəh., M.Rəsulzadə küçəsi, 164 |
| Şirvan İİV-diaqnostika laboratoriyası | Şirvan Şəhər Mərkəzi Xəstəxanası; Şirvan şəh., H.Əliyev küçəsi,16 |
| Yevlax İİV-diaqnostika laboratoriyası | Yevlax Rayon Mərkəzi Xəstəxanası; Yevlax şəh., Ç.Mustafayev küçəsi, 104 |


**Respublika QİÇS-lə Mübarizə Mərkəzi**

Tel.: (+99 412) 510 08 69

Faks: (+99 412) 594 73 53

E-mail: office@aids.az

www.aids.az


## Məlumat telefonu:

(+99 412) 594 99 24

(hər gün 9:00-dan 18:00-dək)

## QAYNAR XƏTT:

(+99 412) 408 79 74

(hər gün 9:00-dan 21:00-dək)


Bakı, AZ1122, H.Zərdabi küç.,96

Tel: 431-60-88, Faks: 430-52-85

office@isim.az www.isim.az



Buklet Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2013-cü il tarixli 2966 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı”nın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Tədbirlər Planının 19-cu bəndinə uyğun olaraq İctimai Səhiyyə və İslahatlar Mərkəzi və Respublika QİÇS-lə Mübarizə Mərkəzi tərəfindən hazırlanmışdır.




# 1 dekabr

## Ümumdünya QİÇS-lə Mübarizə Günüdür

**İİV/QİÇS haqqında bilgilərlə - İİV/QİÇS-siz sağlam gələcəyə doğru!**

Hər il dekabr ayının 1-də bütün dünyada olduğu kimi Azərbaycanda da "Ümumdünya QİÇS-lə Mübarizə Günü" (World AIDS Day) qeyd olunur. İlk dəfə Ümumdünya QİÇS-lə Mübarizə Günü 1 dekabr 1988-ci ildə bütün ölkələrin Səhiyyə nazirlərinin görüşündən sonra qeyd olunmuşdur. Bu görüşdə İİV/QİÇS-lə bağlı sosial dözümə və məlumat mübadiləsinin genişləndirilməsinə çağırış səslənilmişdir. Hər il 1 dekabrda qeyd edilən Ümumdünya QİÇS-lə mübarizə günü dünyanın bütün regionlarında yayılan İİV infeksiyası/QİÇS pandemiyası ilə mübarizə üzrə mütəşəkkil səylərin gücləndirilməsinə xidmət edir.

## İİV nədir ?

**İİV (İnsanın immunçatışmazlığı virusu)** - İİV infeksiyası xəstəliyinin törədicisidir.

**İİV infeksiyası** - İİV-ə yoluxma nəticəsində immun sisteminin getdikcə artan zədələnməsi ilə səciyyələnən xronik infeksion xəstəlikdir.

## QİÇS nədir?

**QİÇS - Qazanılmış immunçatışmazlığı sindromu** – İİV infeksiyasının son mərhələsidir. Bu zaman insanın immun sisteminin dərin zədələnməsi nəticəsində bir sıra mikroblara və bədxassəli şişlərə qarşı orqanizmin müqaviməti azalır. Nəticədə həmin şəxslərdə müxtəlif infeksion xəstəliklər (vərəm, kandidoz, herpes) və bədxassəli şişlər (sarkoma, limfoma) inkişaf edir.

**Hər bir şəxs təhlükəsizliyi naminə İİV-in ötürülmə yollarından agah olmalıdır.**

## İİV hansı yollarla ötürülür?



### Cinsi yolla

İİV-ə yoluxmuş insan öz cinsi partnyorunu hetero-seksual (kişi ilə qadın arasında) və homoseksual (eyni cinsli insanlar arasında) qorunmamış cinsi əlaqə zamanı yoluxdura bilər.



### Qan vasitəsilə ilə

İİV-ə yoluxmuş qanın köçürülməsi, dezinfeksiya edilməmiş tibbi və məişət alətlərinin (iynələr, şprislər, ülgüc və diş fırçası, stomatoloji, cərrahi, manikür, tatuaj və pirsinq alətləri və s.) təkrar istifadəsi ilə virus digər insana ötürülə bilər.



### Hamilə anadan uşağa

Hamiləlik zamanı, doğuş zamanı və ana südü ilə qidalanma nəticəsində virus yeni doğulmuş uşağa ötürülə bilər.

## Bəs İİV hansı yollarla ötürülmür?

- Nəfəslə, öskürmək və asqırmaqla;
- Əl verib görüşmək, qucaqlaşmaq və öpüşməklə;
- İctimai nəqliyyatdan istifadə zamanı;
- Ümumi hovuz, hamam və ayaqyolundan istifadə zamanı;
- Kollektiv idmanla məşğul olduqda;
- Ev və ofis əşyalarından istifadə zamanı;
- Qida və su vasitəsilə;
- Həşəratların sancması ilə.

## Yadda saxlayın!!!

Milliyətindən, dinindən, irqindən, sosial vəziyyətindən asılı olmayaraq hər bir insan İİV-ə yoluxa bilər.

İİV/QİÇS haqqında məlumatı olmayan, yaxud məlumatı olan, lakin fərdi qorunma qaydalarına riayət etməyən hər kəs bu infeksiyaya yoluxa bilər.

Hətta bir qorunmamış cinsi əlaqə də İİV-ə yoluxmanın səbəbi ola bilər.

Qorunmamış cinsi əlaqəyə girməyin.
Cinsi əlaqə zamanı qoruyucu vasitələrdən (prezervativlərdən) istifadə edin.

Qoruyucu vasitələr yalnız İİV-dən deyil, digər cinsi yolla keçən xəstəliklərdən və arzuolunmaz hamiləlikdən də qoruya bilər!

QİÇS tam müalicə olunmur.

**İİV/QİÇS haqqında məlumatlan – özünü və ailəni İİV/QİÇS-dən qoru!**